"Müstəqil Azərbaycan dövlətinin qurucusu" kitabının təqdimatı olub

Mayın 10-da Azərbaycan Milli İncəsənət Muzeyində Səbail Rayon İcra Hakimiyyəti və YAP Səbail rayon təşkilatının birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə tədbir və "Müstəqil Azərbaycan dövlətinin qurucusu" adlı kitabın təqdimatı keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev Ulu Öndərin siyasi fəaliyyətindən danışıb. O qeyd edib ki, Heydər Əliyev ömrünün böyük hissəsini doğma Vətəninin inkişafına və xalqının rifahına həsr edib. Ən çətin vaxtlarda xalqının yanında olan, xilaskarlıq missiyasını uğurla yerinə yetirən və müstəqil Azərbaycanın qurucusuna çevrilən Ulu Öndərin siyasi-ideoloji irsi Azərbaycan xalqının milli sərvətidir. Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycan dinamik inkişaf yoluna qədəm qoyub, dünyəvi, demokratik və hüquqi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin formalaşması prosesi başlayıb. Ümummilli Liderin fəaliyyətinin əsasında dayanan xilaskarlıq missiyası Onun Vətən, xalq sevgisindən qaynaqlanırdı.

Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydər qeyd edib ki, Ulu Öndərin uzaqgörən siyasəti, zəngin dövlətçilik təcrübəsi və qətiyyəti sayəsində ölkədə qısa müddət ərzində sabitliyə və tərəqqiyə nail olunub. Məhz Ulu Öndər Heydər Əliyevin səyləri nəticəsində 1994-cü ildə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində atəşkəs əldə edilib. Heydər Əliyevin həyata keçirdiyi uzaqgörən siyasətin davamı olaraq 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalanıb və bununla da Azərbaycanın etibarlı tərəfdaş ölkəyə çevrilməsi təsbit olunub. "Əsrin müqaviləsi"nin nəticəsi olaraq, iri həcmdə xarici sərmayə Azərbaycan iqtisadiyyatına cəlb edilərək ölkənin inkişafında əvəzsiz rol oynayıb. Bu gün Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin siyasətini uğurla davam etdirir. Hazırda Azərbaycan dünyada sülhün, əmin-amanlığın nümunəsidir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, YAP İcra katibinin müavini Mübariz Qurbanlı deyib ki, 1993-cü il iyunun 15-nin Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi daxil olması səbəbsiz deyil. Azərbaycan xaosdan, anarxiyadan, özbaşınalıqdan xilas oldu, inkişaf yoluna çıxdı. Ulu Öndər Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində Azərbaycan qısa müddətdə sabitlik diyarına çevrilib. Ümummilli Liderin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev ilk gündən Azərbaycanın daha qüdrətli, güclü dövlətə çevrilməsi üçün Heydər Əliyev siyasətinin davam etdirilməsinin vacibliyini bəyan etdi.

Milli Məclisin komitə sədri Hadi Rəcəbli, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, deputat Hikmət Babaoğlu, deputatlar Musa Quliyev, Elman Nəsirov, "SƏS" Media Qrupun rəhbəri Bəhruz Quliyev və başqaları bildiriblər ki, Ümummilli Liderin həyat yolu, göstərdiyi əvəzolunmaz xidmətlər Vətəninə, xalqına, dövlətinə bağlı olan hər bir azərbaycanlı üçün, bütövlükdə dövlətçilik tarixi üçün örnəkdir. Bu dahi şəxsiyyətin, görkəmli dövlət xadiminin və dünya miqyaslı nəhəng siyasətçinin zəngin irsini dərindən araşdırmaq, Onun təkrarolunmaz dövlətçilik təcrübəsindən bəhrələnmək və gənc nəsli bu ruhda tərbiyə etmək nəinki bu günümüz, eləcə də gələcəyimiz üçün mühüm əhəmiyyət kəsb edir.

Sonra qonaqlar muzeyin foyesində Ümummilli Liderin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotosərgi ilə tanış olublar.

Heydər Əliyev Azərbaycanın və Türkiyənin birgə inkişafı üçün böyük səylər göstərib

Ankarada Ulu Öndərin doğum gününə həsr olunan mərasim keçirilib

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə Ankara şəhərində geniş mərasim təşkil olunub.

AZƏRTAC xəbər verir ki, mərasim Türkiyənin paytaxtındakı Heydər Əliyev Parkında Ulu Öndərin heykəlinin ziyarət olunması ilə başlanıb. Azərbaycanın Türkiyədəki səfirliyi adından heykəlin önünə əklil qoyulub. Ziyarətdə Azərbaycanı və Türkiyəni təmsil edən rəsmi şəxslər, o cümlədən Azərbaycan Milli Məclisinin komitə sədrləri Eldar İbrahimov və Əhliman Əmiraslanov, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Şamil Ayrım, diplomatlar, Ankarada hərbi təhsil alan azərbaycanlılar iştirak ediblər.

Tədbir Ankaradakı Heydər Əliyevin adına orta məktəbdə davam edib.

Əvvəlcə Ulu Öndərlər Heydər Əliyevin və Mustafa Kamal Atatürkün xatirələri bir dəqiqəlik sükutla yad olunub.

Sonra Azərbaycanın və Türkiyənin dövlət himnləri səsləndirilib.

Rəsmi hissədə Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahim, Milli Məclisin komitə sədri Əhliman Əmiraslanov, parlamentlərarası dostluq qrupunun sədri Şamil Ayrım, sədr müavini Orxan Erdem, dostluq qrupunun keçmiş sədri Necdət Ünüvar və Heydər Əliyev Məktəbinin direktoru Necattin Şəngəzər çıxış ediblər.

Çıxışlarda Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın dövlət müstəqilliyinin qorunması və inkişafı yolunda həyata keçirdiyi siyasətin nəticələrindən, həmçinin türk dünyasının həmrəyliyi istiqamətində təşəbbüs göstərdiyi və reallığa çevirdiyi işlərdən, beynəlxalq iqtisadi layihələrin əhəmiyyətindən danışılıb. Diqqətə çatdırılıb ki, ölkəmizi parçalanmaqdan və məhv olmaqdan xilas edən Ulu Öndər Heydər Əliyev Azərbaycanın və Türkiyənin birgə inkişafı üçün böyük səylər göstərib. Ölkələrimizin müasir inkişafı bu səylərin bariz nümunəsidir. Əminliklə ifadə olunub ki, Heydər Əliyevin həmişəyaşar adı Azərbaycanda və Türkiyədə olduğu kimi, bütün türk dünyasında əbədiyyətə qədər ehtiramla yad olunacaq.

Mərasim şagirdlərin bədii proqramı ilə davam etdirilib. Ulu Öndər Heydər Əliyevə həsr olunan şeirlər oxunub və şagirdlərin digər ifaları olub.

Bədii hissənin ardınca Azərbaycanın Türkiyədəki səfirliyinin təhsil müşavirliyi tərəfindən Ulu Öndər Heydər Əliyevlə bağlı keçirilmiş inşa, şeir və rəsm müsabiqəsinin qalibləri mükafatlandırılıb.

Milli Aviasiya Akademiyasında Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş tədbir keçirilib

Mayın 10-da "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti Milli Aviasiya Akademiyasının nəzdində fəaliyyət göstərən Mülki Aviasiya Muzeyinin təşkilatçılığı ilə Heydər Əliyev Muzeyində Ümummilli Liderin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş "Xalqa bağışlanan ömür" mövzusunda açıq dərs keçirilib.

Milli Aviasiya Akademiyasından AZƏRTAC-a bildirilib ki, açıq dərsdə akademiyanın "Dil və ictimai fənlər" kafedrasının müəllimləri və "İqtisadiyyat və Hüquq" fakültəsinin tələbələri iştirak ediblər.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra "Dil və ictimai fənlər" kafedrasının müəllimi, f.f.e.d., dosent Ələddin Xəlilov Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında əvəzsiz xidmətlərindən, həmçinin dövlət müstəqilliyimizin qorunub saxlanılması, respublikanın sosial-iqtisadi inkişafı sahəsində əvəzolunmaz fəaliyyəti haqqında tələbələrə məlumat verib. Daha sonra tələbələr Ulu Öndərə həsr edilmiş şerlər, həmçinin də dünyanın görkəmli dövlət və siyasi xadimləri tərəfindən Ümummilli Liderin şəxsiyyəti, uzaqgörən müdrik siyasəti haqqında deyilmiş fikirləri müxtəlif xarici dillərdə söyləyiblər.

Açıq dərs "Hər bir azərbaycanlının taleyində Heydər Əliyev dühasının bir zərrəsi var" adlı filmin nümayişi ilə yekunlaşıb.

Nərimanov rayonunda Ulu Öndərin xatirəsinə həsr olunan ağacəkmə aksiyası keçirilib

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə keçirilən silsilə tədbirlər çərçivəsində Bakının Nərimanov rayonunun ərazisində yerləşən 15 hektar sahəni əhatə edən yaşıllıq zolağında ağacəkmə aksiyası keçirilib. Məqsəd yaşıllıq zolağını daha da genişləndirmək, şəhərin ekoloji tarazlığını bərpa etmək, insanlar arasında ekoloji mədəniyyəti, təbiətə qayğı hissini təbliğ etmək və ümumilikdə, dövlətimizin başçısının rəhbərliyi ilə aparılan ardıcıl islahatlar nəticəsində gündən-günə gözəllənən paytaxtımızın istər Avropa, istərsə də dünyanın ekoloji cəhətdən sağlam və təmiz olan ən gözəl şəhərləri sırasında qərarlaşması istiqamətində görülən işlərə dəstək verməkdir.

Nərimanov rayon İcra Hakimiyyətindən AZƏRTAC-a verilən məlumata görə, Milli Məclisin deputatlarının, rayon rəhbərliyinin, idarə, müəssisə və təşkilatların, ictimaiyyətin nümayəndələrinin, könüllü sakinlərin, həmçinin gənclərin yüksək fəallıqla qoşulduğu genişmiqyaslı iməcilikdə ətraf ərazi tullantılardan təmizlənərək, burada mövcud olan yaşıllığa aqrotexniki qulluq edilib, ərazidə Leylanda və müxtəlif növ digər ağac və kollar əkilib.

"Müstəqilliyimiz birbaşa Ulu Öndərin adı ilə bağlıdır"

"Gözəl deyirlər ki, tarix keçmiş siyasət, siyasət bugünkü tarixdir. Biz tarixi öyrənməklə, əslində, o dövrdəki siyasəti öyrənirik. Tarixə diqqət yetirəndə, görürük ki, siyasi proseslər hərbi münaqişələrin, yəni siyasətin nəticəsi olaraq, baş vermiş hadisələrin xronologiyasıdır. Bu mənada biz Heydər Əliyevdən danışanda istər tarixi ,istərsə də, siyasi kontekstdən gözümüzün qabağında bütöv bir era canlanır. Bu, Heydər Əliyev erasıdır". Bunu SİA-ya açıqlamasında "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu deyib.

Deputatın sözlərinə görə, ən başlıcası ondadır ki, bu era bu gün də davam edir: **"Fiziki baxımdan Heydər Əliyev aramızda yoxdur, amma Onun yaratdığı siyasi era davam edir. Hesab edirəm ki, bu, Azərbaycanda yüzilliklər boyunca davam edəcək. Çünki Azərbaycanın müstəqil dövlətçiliyinin əsaslarının, ideoloji prinsiplərinin yaranması, Azərbaycan cəmiyyətinin formalaşması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Qeyd edək ki, dövlət qurmaq üçün, əlbəttə, ideoloji konsepsiya, elmi əsaslar lazımdır. Müstəqil dövlətimizin ən aparıcı, birləşdirici konsepsiyası Heydər Əliyevin irəli sürdüyü Azərbaycançılıq konsepsiyasıdır. Azərbaycançılıq konsepsiyası isə müstəqillik dövründən başlamayıb. Əslində bu, 1969-cu ildən, Ulu Öndərin Azərbaycana hakimiyyətə gəldiyi illərdən başlayıb. Azərbaycançılıq hələ sovet imperiyası dövründə Bakının azərbaycanlaşdırılması, neft sənayesi, digər sənaye müəssisələrinin qurulması və azərbaycanlı gənclərin əyalətlərdən Bakıya daşınması ilə başlayıb. Ən nəhayət, azərbaycançılıq konsepsiyası 1978-ci ildə, Azərbaycan Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi qəbul olunmasından başlayıb. Bu amillər milli, siyasi, etnik münasibətlərimizin aparıcı, birləşdirici üzvü olan Azərbaycançılıq ideologiyasının əsasları və kökləridir.**

Heydər Əliyevin dövlətçilik məktəbi bütövlükdə bir ağacdır. Bunun kökləri dərinliklərə gedir. Ulu Öndərin fəaliyyətindən danışarkən, onu bütöv, tam şəkildə nəzərdən keçirmək lazımdır. Bu dövrü üç yerə, 1969-1982-ci illər, 1982-1987-ci illər, hətta yarımdövr kimi ortadakı dövrü də xarakterizə etmək olar. Ən nəhayət, müstəqillik dövrünə bölmək olar. Bu tarixi dövrlər Azərbaycan xalqının möhtəşəm tarixidir. Qeyd olunduğu kimi, Ulu Öndər Heydər Əliyev, ilk növbədə, Azərbaycanı sənaye ölkəsinə çevirmək üçün məxsusi, məqsədyönlü siyasət həyata keçirməyə başladı. O dövrdə SSRİ büdcəsindən Azərbaycana ayrılan vəsaitin məbləği çox kiçik həcmdə idi. Ulu Öndər Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildikdən sonra respublikamıza ittifaq büdcəsindən ayrılan vəsait dəfələrlə artırıldı. Bütün bunların hər birinin arxasında Heydər Əliyevin titanik fəaliyyəti, rus şovinizmləri ilə mübarizəsi dururdu. Ona görə də, o dövr haqqında çəkinmədən, qətiyyətlə danışmaq lazımdır. Hərb olmasa, dövlət olmaz. Bu baxımdan, Azərbaycanda hərbi kadrların hazırlanması ilə bağlı Ulu Öndərin xüsusi siyasəti var idi. Sovet hərbi sisteminin tərkibində bu ali məktəblərin qurulmasına baxmayaraq, onlar millilləşirdi. Bütün bunlar Ulu Öndərin o dövrdəki fəaliyyətinin nəticəsi idi. Yəni, müstəqilliyimiz birbaşa Ulu Öndərin adı ilə bağlıdır.

Dövlət yaratmaq, qurmaq olar, amma bu dövlətin varisliyini təmin etmək çətin məsələdir. Dövlətçiliyi ideoloji əsaslarla, müvafiq struktur ilə təmin etmək olduqca mürəkkəb məsələdir. Ulu Öndər Heydər Əliyev elə bir dövlət sistemi qurdu ki, bu sistemin başında duran siyasi varis Azərbaycan dövlətinin gələcəyini təmin etdi. Dağlıq Qarabağ münaqişəsinin həlli, iqtisadiyyatın inkişafı, Azərbaycan cəmiyyətinin sosial-siyasi strukturunun formalaşması, etnik siyasi vasitəçiləri birləşdirəcək proseslərlə bağlı verilən qərarlar Onun uzaqgörənliyindən xəbər verir. Balanslaşdırılmış siyasət sözünə hər kəs qəribə bir hiss ilə baxırdı. 2008-ci ilin avqust ayının 7-də Gürcüstan hadisələri baş verəndən sonra hamıya aydın oldu ki, balanslaşdırılmış siyasət nə deməkdir. Dahilik, uzaqgörənlik, xarizma, böyüklük, siyasi liderlik məhz Onun yürütdüyü siyasətdə və Onun bariz nümunələrində özünü göstərir. Hesab edirəm ki, xalqımız hələ uzun müddət Ulu Öndərin Azərbaycan üçün etdiklərinin bəhrəsini görəcək".

Vüqar Rəhimzadə: Bu gün Azərbaycan Ulu Öndər Heydər Əliyevin formalaşdırdığı möhkəm təməl üzərində inamla addımlayır

Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində Heydər Əliyev dövrü bənzərsizdir. Bu dövrün hər bir mərhələsi müasir tariximizin bütöv bir salnaməsini təşkil edir. Tariximizi vərəqlədikcə Ulu Öndər Heydər Əliyevin dövlətimiz, xalqımız qarşısındakı xidmətlərinin miqyasının nə qədər geniş olduğunu daha aydın görür, möhkəm təməl üzərində addımlayan Azərbaycanın uğurları fonunda Heydər Əliyev yolunun qarşıdakı illərdə daha yüksək zirvələri fəth etməyimizə əsas yaratdığını böyük qürur hissi ilə qeyd edirik. Ümummilli Liderin şah əsəri olan müasir müstəqil Azərbaycan harada yaşamasından asılı olmayaraq, bütün azərbaycanlılar üçün qürur mənbəyidir.

Bu fikirləri YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü ilə bağlı AZƏRTAC-a açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, dahi şəxsiyyət Heydər Əliyevin "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" tezisi hər birimizin həyat amalına çevrilməklə yanaşı, azərbaycançılıq məfkurəsi ətrafında birliyimizə, həmrəyliyimizə, Vətənə, dövlətə, xalqa bağlılığımıza, vətənpərvərlik hissinin daha da artırılmasına bir çağırışdır. Ümummilli Liderin fəaliyyətinin əsasında dayanan xilaskarlıq missiyası da Onun Vətən, xalq sevgisindən qaynaqlanırdı. Hakimiyyətinin hər iki dövründə Azərbaycanın tarixinə biri-birindən önəmli uğur səhifələrini yazan Ulu Öndər Heydər Əliyev "Azərbaycan dünyaya günəş kimi doğacaq" çağırışını da etmişdir.

YAP Siyasi Şurasının üzvü vurğulayıb ki, müstəqilliyimizin ilk illərində xaos, anarxiya, özbaşınalıq, iqtisadi tənəzzül, "olum, ya ölüm" dilemması qarşısında qalan Azərbaycan xalqı onu bu vəziyyətdən çıxaracaq yeganə liderin Ulu Öndər Heydər Əliyev olduğunu Onun yenidən hakimiyyətə qayıtması çağırışını etməklə bildirdi. Hər zaman xalqının yanında olan Ulu Öndər Heydər Əliyev yenə də xalqın təkidli tələbini müsbət cavablandıraraq hakimiyyətə qayıtdı. 1993-cü il 15 iyunun Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi daxil olması səbəbsiz deyil. Azərbaycan xaosdan, anarxiyadan, özbaşınalıqdan xilas oldu, inkişaf yoluna çıxdı. Ulu Öndər Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində Azərbaycan qısa müddətdə sabitlik diyarına çevrildi.

V.Rəhimzadə bildirib ki, Azərbaycanın iqtisadi uğurlarının davamlılığı siyasi mövqeyinin möhkəmlənməsinə də geniş yol açdı. Onun sözlərinə görə, Ulu Öndər Heydər Əliyevin uğurlu daxili siyasəti nəticəsində ölkəmizdə demokratik cəmiyyətin mövcudluğunu təsdiqləyən bütün atributlar bərqərar oldu. İnsan hüquq və azadlıqlarının qorunması, mətbuat azadlığının təmin edilməsi, çoxpartiyalı sistemin yaradılması, seçkilərin demokratik və beynəlxalq standartlara uyğun keçirilməsi üçün zəruri olan bütün addımlar atıldı. Mətbuatın üzərindən senzuranın götürülməsi, ölüm hökmünün ləğvi kimi biri-birindən önəmli addımlar Ulu Öndər Heydər Əliyevin humanizm siyasətinin əsas tərkib hissələridir. Dahi şəxsiyyət Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanan və referendum yolu ilə qəbul olunan milli Konstitusiyamız Azərbaycanın demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolunda inamla addımlamasına yol açdı.

V.Rəhimzadə diqqətə çatdırıb ki, Ulu Öndər Heydər Əliyevin fəaliyyətinin hər bir sahəsi bir araşdırma mövzusudur: **"Reallıq budur ki, Azərbaycan müstəqil dövlət olaraq öz varlığını təsdiqlədi, sözünün imzası qədər dəyəri olduğunu bir daha nümayiş etdirdi. Bu gün Azərbaycan Ulu Öndər Heydər Əliyevin formalaşdırdığı möhkəm təməl üzərində inamla addımlayır. Ümummilli Liderin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev ilk gündən Azərbaycanın daha qüdrətli, güclü dövlətə çevrilməsi üçün Heydər Əliyev siyasətinin davam etdirilməsinin vacibliyini bəyan etdi. Son 15 il bu vədin konkret əməli işdə öz təsdiqini tapdığını göstərir".**

V.Rəhimzadə onu da qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin dövlətimiz, xalqımız qarşısında xidmətlərindən bəhs edərkən bu gün cəmiyyətin aparıcı siyasi qüvvəsinə çevrilən Yeni Azərbaycan Partiyasının yaradıcısı olduğunu xüsusi qeyd etməliyik. "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır" söyləyən Ümummilli Lider bu fikirləri ilə partiyanın gələcəyinə inamını aydın şəkildə ifadə etmişdir. Hazırda sıralarında 730 mindən artıq üzvü birləşdirən Yeni Azərbaycan Partiyasına milyonların sevgisi şəksizdir.

Baş redaktor sonda vurğulayıb ki, Ulu Öndərin xidmətlərinin miqyası o qədər geniş, bugünkü və gələcək nəsillərə çatdırılacaq məqamlar o qədər sonsuzdur ki, daim araşdırmalara, yeni-yeni elmi əsərlərə, kitablara ehtiyac yaranır. Hər birimiz Heydər Əliyev irsinin təbliğatçısı olmalı, Azərbaycanın daha qüdrətli, güclü dövlətə çevrilməsinə öz töhfəmizi verməliyik.